# Başçımız Çöhrəqanlı niyə aldanır, azır?

**Çöhrəqnlı** deyir ay “mərdüm azar”,
İstiqlal istəmə`ki Rusya qızar,
Ermənistan`da sərhədləri pozar,
Qardaş Türkiyə kökümüzü qazar,
İstiqlal`ı göndərin arzı gilə,
Fedralizmi yedirin xəstə el`ə.

**Çöhrəqanlı** hər gün bir hava çalır
Gah ayrılır, gah`da İran`da qalır
İrancıların ... qadasını alır
**Çöhrəqanlı** xalqı oyuncaq sanır
Dün verdiyi sözləri bugün danır.

**Çörəqanlı**`ca İran gülüstan`dı
O-güllərdən biri Azərbaycan`dı
Onun bu sözündən hamı utandı
Azərbaycan`ı Farsistan edib çöl
Çöl`də heyvan yaşar, gülüstan`da gül

**Çöhrəqanlı** deyir haqlar ərin`di
Haq verilməz, almağıda çətin`di
Allah **kərim**`di,(*quyusu dərin`di*)
Allah **istəməyir** İran bölünə
Yoxasa milli-baclar axmaz gölünə

**Çöhrəqanlı** deyir Allah`a qul ol
İstiqlal haqqı verməsə yan, kül ol
Satıb, xərcləməsi üçün ağ pul ol
+(İmtiyaz almasi)
Allah`a imtiyaz verən millət`ə
Qulluq etməsən göndərməz Cənnət`ə

Silahlanmaq üçün dəstək lazımdı
Dəstəkçi`dən yana istək lazımdı
İstəksiz dəstəkə “eşşək” lazımdı
Dəstəkçi istəyi fedralizm olsa
Başqa dəstəkçi bul doğma ulusa

**Çöhrəqanlı** sanır **Türk** qeyrətsiz`di
Tarix`dən ders almayıb, ibrətsiz`di
Bütöv Azərbaycan`a həsrətsiz`di
İstək` i öz bulutundan yağmayır <
Qeyrət ilə hesrətindən doğmayır <

**Çöhrəqanlı** milli şuurdan qorxur
Yolu həm eyridi, həm çala, çuxur
İstiqlalın başını yerə soxur
**Çöhrəqanlı** oyadmayır, uyudur
Kən-kən`in yeri qazdığı quyu`dur

**Rəşid Dostum`**a süslü şal lazımdı <
**Çöhrəqanlı`**ya köhnə mal lazımdı <
**Azərbaycan`**a istiqlal lazımdı
**Dünya** fedralizm`in kökünü qazır
**Çöhrəqanlı** niyə aldanır, azır?!

10.10.04 Baltacı Araz